**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəbləri üçün mərkəzləşdirilmiş buraxılış imtahanlarının keçirilməsi**

**QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1 “Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəbləri üçün mərkəzləşdirilmiş buraxılış imtahanlarının keçirilməsi Qaydaları” (bundan sonra – Qaydalar) Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərən incəsənət məktəb və mərkəzlərində (bundan sonra – məktəblər) buraxılış imtahanlarının (bundan sonra – imtahanlar) keçirilməsi prosesində obyektivliyin, şəffaflığın və hüquq bərabərliyinin təmin edilməsi məqsədilə imtahanların mərkəzləşdirilmiş qaydada keçirilməsi prosedurunu müəyyənləşdirir.

1.2. Bu Qaydalar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin 3-24/3-1-f-88/2026 nömrəli 08 may 2026-cı il tarixli əmrinə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 04 noyabr tarixli 23-VII FR nömrəli Fərmanı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"yə və qüvvədə olan digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

## 2. İmtahanların keçirilməsi prinsipləri

2.1. İmtahanlar aşağıdakı prinsiplər əsasında keçirilir:

2.1.1. qanunçuluq – imtahan zamanı qanunvericiliyin tələblərinə riayət edilməsi, imtahan tələblərinin normativ hüquqi aktlara və Nazirlik tərəfindən təsdiq olunmuş hüquqi aktlara uyğun olması;

2.1.2. obyektivlik – buraxılış sinfində təhsil alan və cari tədris ilində məzun olacaq şagirdin (bundan sonra – məzun) bilik və bacarıqlarının bu Qaydalar əsasında qiymətləndirilməsi;

2.1.3. qərəzsizlik – məzun ilə yaxın qohumluq (valideynləri, qardaşları, bacıları, əri (arvadı) (18 yaşdan yuxarı olanlar üçün) və şəxsi tanışlıq əlaqəsi olan şəxslərin imtahan komissiyasının tərkibinə daxil edilməsinin yolverilməzliyi;

2.1.4. bərabərlik – irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq məzunların hüquqlarının bərabərliyinə təminat verilməsi;

2.1.5. peşəkarlıq – məzunun potensialının və qabiliyyətinin müəyyən edilməsi üçün hərtərəfli qiymətləndirilməsi;

2.1.6. şəffaflıq – imtahanların şərtlərinin və nəticələrinin məzuna, 18 yaşa çatmayanların valideyninə və ya qanuni nümayəndəsinə açıq şəkildə elan edilməsi.

## 3. İmtahanların keçirilmə qaydaları

3.1. İmtahanların keçirilmə tarixi, vaxtı və məkanı barədə məzuna, 18 yaşına çatmayanların valideyninə və ya qanuni nümayəndəsinə “MyCulture” vahid şəxsi kabineti, elektron poçt və SMS məlumatlandırma sistemi vasitəsilə bildiriş göndərilir.

3.2. İmtahanlar bu Qaydalara əlavədə qeyd edilmiş ixtisaslar və müvafiq təhsil səviyyələri üzrə imtahan proqramlarının tələblərinə uyğun olaraq keçirilir (1 nömrəli Əlavə).

3.3. Hər bir məzunla imtahan fərdi qaydada (rəssamlıq ixtisası istisna olmaqla), 30 (otuz) dəqiqəyədək müddətə, ixtisas, fərdi fənlər və nəzəri biliklərin kompleks yoxlanılması əsasında vahid imtahan formasında keçirilir.

3.4. Rəssamlıq ixtisası üzrə imtahan hər bir qrup üçün ayrılıqda 120 (bir yüz iyirmi) dəqiqə müddətində aparılır.

3.5. İmtahanlar videoçəkiliş aparılmaqla keçirilir və hər bir məzunun imtahan videoyazısı arxivləşdirilir.

3.6. İmtahanın nəticəsi ilə razı olmayan məzun (18 yaşına çatmayanların valideyni və ya qanuni nümayəndəsi) nəticələr elan edildiyi gündən etibarən 3 (üç) iş günü müddətində "MyCulture" vahid şəxsi kabineti üzərindən Nazirliyə şikayət verə bilər. Şikayətlər Nazirliyin müvafiq əmri ilə yaradılmış Apellyasiya Komissiyası tərəfindən 10 (on) iş günü müddətində araşdırılır və müvafiq qərar qəbul edilir.

3.7. Üzrlü səbəb olmadan təyin olunmuş vaxtda imtahanda iştirak etməyən məzunlar üçün təkrar imtahan keçirilmir.

3.8. Üzrlü səbəbdən təyin olunmuş vaxtda imtahanda iştirak etməyən məzunlar üçün müvafiq təsdiqedici sənədlər təqdim edildiyi halda əlavə imtahan günü təyin edilir.

## 4. İmtahan komissiyasının reqlamenti

4.1. Məzunların bilik və bacarıqları Nazirliklə razılaşdırmaqla aidiyyəti üzrə regional mədəniyyət idarələri (bundan sonra - İdarə) tərəfindən yaradılan Komissiyalar tərəfindən yoxlanılır.

4.2. Komissiyaların tərkibi 3 nəfərdən ibarət olur, sayı ixtisasların və məzunların sayından asılı olaraq müəyyən edilir.

4.3. Bundan əlavə hər bir komissiya üçün ehtiyat üzvlər müəyyənləşdirilir. Məktəbin direktoru və tədris işləri üzrə direktor müavini Komissiyanın üzvü ola bilməz.

4.4. Komissiya üzvləri imtahanın keçirilməsini, məzunların qiymətləndirilməsini və imtahanın nəticəsinə dair rəylərin hazırlanmasını təmin edirlər.

4.5. İdarə tərəfindən imtahan keçirilən hər bir məkan üzrə imtahan rəhbəri təyin edilir. İmtahan rəhbəri imtahanların gedişatına nəzarəti, imtahan protokollarının, aktların, foto və videomaterialların komissiyalardan təhvil alınmasını, yaranmış problemlərin operativ şəkildə həll olunması üçün tədbir görülməsini təmin edir.

4.6. İdarə tərəfindən hər bir komissiya üzrə məzunun imtahan nəticələrinin (video və foto materialları və s.) sistemə daxil edilməsini təmin edəcək əməkdaş (sistem inzibatçısı - Admin) müəyyənləşdirilir.

4.7. Komissiya üzvləri imtahan aparılacaq yerə təyin edilmiş vaxtda gəlməli, məzunun və digər Komissiya üzvlərinin şəxsiyyətinə və fikirlərinə hörmətlə yanaşmalı, imtahan zamanı nəzakətli, diqqətli və səbirli olmalı, məzunun bilik və bacarıqlarının obyektiv və qərəzsiz yoxlanılmasını təmin etməli, imtahanın aparılmasına mane olan texniki və digər vasitələrdən istifadə etməməli, o cümlədən rabitə vasitələrini imtahan

otaqlarına gətirməməli və imtahanın aparılmasına mane olan digər hərəkətlərə yol verməməlidir.

4.8. Hər bir məzunun imtahan nəticələri protokola yazılır və komissiya üzvləri tərəfindən imzalanır.

4.9. Məzun imtahana gəlmədikdə, komissiya üzvləri tərəfindən onun imtahanda iştirak etmədiyi barədə akt tərtib edilir və imzalanır.

4.10. Hər bir məzunun imtahan nəticəsi (komissiya üzvlərinin verdiyi ballar), imtahanın videoyazısı, imzalanmış protokol və aktlar, habelə rəssamlıq sinfi məzunlarının əl işlərinin fotosu və rəsmlərin surəti (skan edilmiş) Admin tərəfindən imtahan keçirilən gün sistemə əlavə edilir.

4.11. İmtahan günü ərzində komissiyalar tərəfindən tərtib edilmiş bütün protokollar və aktlar İmtahan rəhbərinə təhvil verilir. İmtahan rəhbəri protokol və aktları, foto və videomaterialları həmin gün İdarəyə təhvil verir.

4.12. Komissiyaların fəaliyyəti zamanı yol verilmiş pozuntu halları müəyyən edildikdə, pozuntunun xarakterindən və təsir dairəsindən asılı olaraq müvafiq imtahan üzrə qəbul edilmiş qərarlar və nəticələr tam və ya qismən ləğv edilir, zərurət yarandıqda isə imtahan yenidən təşkil olunur. Həmin pozuntulara yol vermiş şəxslər barəsində qanunvericiliyə uyğun olaraq tədbirlər görülür.

## 5. Qiymətləndirilmə və balların hesablanması

5.1. Məzunların qabiliyyət və bacarıqları hər bir Komissiya üzvü tərəfindən 5 bal sistemi üzrə aşağıdakı kimi qiymətləndirilir:

1 və 2 bal - qeyri-kafi;
3 bal - kafi;
4 bal - yaxşı;
5 bal - əla.

5.2. Komissiya üzvləri tərəfindən hər bir fənn üzrə verilmiş qiymətlər toplanır və komissiya üzvlərinin sayına bölünərək həmin fənn üzrə məzunun nəticəsi müəyyən edilir. Müəyyən edilmiş nəticələr məzunun şəhadətnaməsinə müvafiq qaydada daxil edilir.

5.3. Nəticəsi "qeyri-kafi" kimi qiymətləndirilən məzun buraxılış imtahanında uğursuz nəticələnmiş hesab edilir. Cari ilin buraxılış imtahanında uğursuz nəticə əldə edən məzunlar növbəti tədris ilində yenidən imtahan vermək üçün iştirak edə bilərlər.

5.4. Yekun nəticə aşağıdakı düstur əsasında hesablanılır:

$$\frac{\text{Fənn üzrə verilmiş balların cəmi}}{\text{Komissiya üzvlərinin sayı}} = \text{Nəticə}$$

Nəticə üzrə qiymətdə olan vergüldən sonrakı ilk rəqəm 5 və daha yuxarı olarsa, yuxarı rəqəmə, 4 və daha aşağı olarsa, aşağı rəqəmə doğru yuvarlaqlaşdırılır.

Məsələn:

• 3 komissiya üzvü tərəfindən verilən fənn üzrə ballar: 4 bal; 5 bal; 5 bal. Nəticənin hesablanması: (4+5+5) : 3 = 4,7– yekun qiymət 5 bal;

• 3 komissiya üzvü tərəfindən verilən fənn üzrə ballar: 4 bal; 4 bal; 5 bal. Nəticənin hesablanması: (4+4+5) : 3 = 4,3 – yekun qiymət 4 bal.

## 6. Qaydaların pozulmasına görə məsuliyyət

6.1. İmtahanların təşkili və keçirilməsi ilə bağlı bu Qaydalarla tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq həll edilir.

6.2. Bu Qaydaların tələblərinin pozulması, əməldə inzibati və ya cinayət tərkibi olmadığı hallarda, qanunvericiliyə uyğun olaraq intizam məsuliyyətinə səbəb olur.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəbləri üçün mərkəzləşdirilmiş buraxılış imtahanlarının keçirilməsi Qaydalarının 1 nömrəli əlavəsi*

# UŞAQ MUSİQİ VƏ İNCƏSƏNƏT MƏKTƏBLƏRİ ÜÇÜN MƏRKƏZLƏŞDİRİLMİŞ BURAXILIŞ İMTAHANLARININ PROQRAMLARI

***Musiqi, xoreoqrafiya və rəssamlıq istiqamətləri üzrə***

| MUSİQİ İSTİQAMƏTİ | |
|---|---|
| **İxtisas (muğam, not) və digər fərdi fənlər üzrə imtahanlar müvafiq olaraq 5 illik, 7 illik təhsil sistemi üçün tərtib edilmiş Tədris proqramları çərçivəsində buraxılış sinfinin proqramlarının tələbatına uyğun seçilməlidir** | |
| **Nəzəri fənlər üzrə suallar Tədris proqramlarının tələblərinə uyğun tərtib edilməlidir** | |
| **İxtisaslar üzrə imtahan verilən fənlər** | **İxtisas imtahan tələbatı** |
| **FORTEPİANO** | |
| **7 illik təhsil:**<br>- İxtisas<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | • *1 etüd;*<br>• *1 polifonik əsər;*<br>• *1 iri formalı əsər;*<br>• *1 və ya 2 pyes (1 – xarici ölkə bəstəkarının iri həcmli əsəri, 1- Azərbaycan bəstəkarının əsəri).* |
| | |
| **SİMLİ ALƏTLƏR** | |
| **VİOLONÇEL, VİOLİN**<br>**5, 7 illik təhsil:**<br>- İxtisas<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | ***5 və 7 illik təhsil:***<br>• *1 etüd;*<br>• *1 iri həcmli əsər - I və ya II-III hissələr (konsertmeysterin müşayiəti ilə);*<br>• *2 müxtəlif xarakterli pyes (konsertmeysterin müşayiəti ilə).* |
| **NƏFƏS ALƏTLƏRİ** | |
| **FLEYTA, KLARNET, TRUBA,**<br>**5 illik təhsil:**<br>- İxtisas<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | ***Fleyta:***<br>• *1 iri həcmli əsər - I və ya II-III hissələr (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 pyes (konsertmeysterin müşayiəti ilə).*<br>***və ya***<br>• *3 müxtəlif xarakterli pyes (biri Azərbaycan bəstəkarının əsəri olmaqla, konsertmeysterin müşayiəti ilə).*<br><br>***Klarnet:***<br>• *1 etüd;*<br>• *1 iri həcmli əsər – 1 hissə (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 pyes (konsertmeysterin müşayiəti ilə).*<br>***və ya*** |

| | |
|---|---|
| | • *3 pyes (biri Azərbaycan bəstəkarının əsəri olmaqla, konsertmeysterin müşayiəti ilə).*<br><br>***Truba:***<br>• *1 iri həcmli əsər - I və ya II-III hissələr (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 pyes (konsertmeysterin müşayiəti ilə).*<br>***və ya***<br>• *1 etüd;*<br>• *3 pyes (biri Azərbaycan bəstəkarının əsəri olmaqla, konsertmeysterin müşayiəti ilə).* |
| **XALQ ÇALĞI ALƏTLƏRİ** | |
| **TAR, KAMANÇA, QANUN**<br>**5 illik təhsil:**<br>- İxtisas<br>- Muğam<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | • *1 etüd;*<br>• *1 iri həcmli əsər (konsert – I hissə və ya II-III hissələr, fantaziya, uvertüra, variasiya, süita, sonata, sonatina və s., konsertmeysterin müşayiəti ilə);*<br>• *2 müxtəlif xarakterli pyes (1- xarici ölkə, 1 Azərbaycan bəstəkarının əsəri olmaqla, konsertmeysterin müşayiəti ilə);*<br>• *1 muğam;*<br>• *1 zərbi muğam.* |
| **BALABAN**<br>**5 illik təhsil:**<br>- İxtisas<br>- Muğam<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | • *1 etüd;*<br>• *2-3 pyes (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 muğam;*<br>• *1 zərbi muğam;*<br>• *1 rəqs.* |
| **QARMON**<br>**5 illik təhsil:**<br>- İxtisas<br>- Muğam<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | • *1 etüd;*<br>• *2 müxtəlif xarakterli pyes (1- xarici ölkə, 1 Azərbaycan bəstəkarının əsəri olmaqla, konsertmeysterin müşayiəti ilə);*<br>• *2 rəqs;*<br>• *1 muğam;*<br>• *1 zərbi muğam.* |
| **NAĞARA**<br>**5 illik təhsil:** | • *1-2 mürəkkəb məşğələ;*<br>• *1-2 musiqi nümunəsi nağara partiyası* |

| | |
|---|---|
| - İxtisas<br>- Not<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | *(konsertmeysterin müşayiəti ilə)*<br>• *solo ifası.* |
| **SAZ**<br>**5 illik təhsil:**<br>- İxtisas<br>- Not<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | • *1 etüd;*<br>• *1 ənənəvi saz havası;*<br>• *1 saz havasının notla ifası.* |
| **XANƏNDƏLİK**<br>**5 illik təhsil**<br>- İxtisas<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | • *1 xalq mahnısı (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 bəstəkar mahnısı (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 muğam;*<br>• *1 zərbi muğam.* |
| **VOKAL**<br>**5 illik təhsil**<br>- İxtisas<br>- Solfecio<br>- Azərbaycan musiqi ədəbiyyatı<br>- Xarici ölkələrin musiqi ədəbiyyatı | ***Vokal***<br>• *1 Azərbaycan xalq mahnısı (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 bəstəkar mahnısı (konsertmeysterin müşayiəti ilə);*<br>• *1 ariya (opera və ya operettadan);*<br>• *1 vokaliz.* |
| **Nəzəri fənlər üzrə suallar Tədris proqramları çərçivəsində tərtib edilən proqramlara uyğun tərtib edilməlidir. Hər fənn üzrə 5 sual verilə bilər.** | |
| **Nəzəri fənlər** | **Nəzəri fənlər üzrə imtahan tələbatı** |
| **Solfecio (5, 7 illik təhsil)** | ***5, 7 illik təhsil***<br>• *verilən major və ya minor qammasını 3 halda oxumaq,*<br>• *intervalları, əsas üçsəsliləri, D7, dönmələri – səsdən və ya tonallıqda qurub oxumaq;*<br>• *üçtonlular və xasiyyətli intervalları tonallıqda qurub oxumaq;*<br>• *verilən solfecio nömrəsini (1 səsli) oxumaq;* |

| | |
|---|---|
| | • *eşitməklə təyin (qammalar, intervallar, üçsəslilər).* |
| **Azərbaycan musiqi ədəbiyyatı (5, 7 illik təhsil)** | • *tədris proqramına uyğun olaraq keçilmiş Azərbaycan bəstəkarlarının həyat və yaradıcılığı - Ü.Hacıbəyli, M.Maqomayev, A.Zeynallı, Q.Qarayev, F.Əmirov, T.Quliyev, C.Hacıyev, C.Cahangirov, S.Hacıbəyov, A.Məlikov, R.Hacıyev, X.Mirzəzadə, A.Əlizadə, V.Adıgözəlov, F.Əlizadə,*<br>• *musiqi materialının eşitməklə təyini.* |
| **Xarici ölkələrin musiqi ədəbiyyatı (5, 7 illik təhsil)** | • *tədris proqramına uyğun olaraq keçilmiş xarici ölkə bəstəkarları haqqında və onların yaradıcılığı, məşhur əsərləri - İ.S.Bax, Y.Haydn, V.A.Motsart, L.V.Bethoven, F.Şubert, F.Şopen, M.Qlinka, P.Çaykovski, N.Rimski-Korsakov, D.Şostakoviç, S.Prokofyev, S.Raxmaninov,*<br>. • *musiqi materialının eşitməklə təyini.* |

## XOREOQRAFİYA İSTİQAMƏTİ

**Tədris proqramları çərçivəsində buraxılış sinfinin tələbatına uyğun rəqslər seçilə bilər**

**Nəzəri fənlər üzrə suallar tədris proqramlarına uyğun tərtib edilməlidir**

| İmtahan verilən fənlər | İxtisas imtahan tələbatı |
|---|---|
| **MİLLİ RƏQS** | • *1 milli rəqs ifa etmək;*<br>• *tədris proqramına uyğun olaraq rəqs hərəkətləri göstərmək.* |
| **MUSİQİ SAVADI VƏ MUSİQİ DİNLƏMƏ** | **İmtahan tələbatı** |
| **Musiqi savadı və musiqi dinləmə** | • *musiqi terminləri, qammalar, intervallar, üçsəslilər, akkordlar anlayışı;*<br>• *rəqslər haqqında;*<br>• *görkəmli bəstəkarların tanınmış əsərləri, məşhur baletlər;*<br>• *elementar musiqi nəzəriyyəsi;*<br>• *eşitmə ilə təyin.* |

| RƏSSAMLIQ İSTİQAMƏTİ | |
|---|---|
| **Tədris proqramları çərçivəsində buraxılış sinfinin tələbatına uyğun əl işləri təqdim edilməlidir** | |
| **İmtahan verilən fənlər** | **İxtisas imtahan tələbatı** |
| - **Rəsm** | • *rəsm fənni üzrə verilən vaxt müddətində (120 dəqiqə) qara karandaşla bir əsər (təqdim edilmiş natürmort və ya gipsdən olan ornament) üzərində iş* |
| - **Heykəltəraşlıq (tədris edilirsə)** | • *hazır əl işlərindən biri təqdim edilir* |
| - **Kompozisiya** | • *hazır əl işlərindən biri təqdim edilir* |
| - **Plastik anatomiya** | • *hazır əl işlərindən biri təqdim edilir* |